# Unudulmayan qəhrəmanlıq

*Aprel döyüşlərinin əfsanəvi qəhrəmanı, cəsur kəşfiyyatçı, Xüsusi Təyinatlı Qüvvələrin "Qoca qurd" ləqəbli giziri Pəncəli Teymurovun şəhadətindən 9 il ötür. 2016-cı il aprel ayının 11-də böyük izdihamla torpağa tapşırılan şəhidin dünyaya göz açdığı doğma Astara rayonunun Əzərüd kəndində anım mərasimi keçirildi.*



Heydər Əliyev Fondunun dəstəyi, Astara Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən mərasimə Bakıdan, Neftçaladan, Cəlilabaddan, Masallıdan, Lerikdən və ölkəmizin digər bölgələrindən gəlmiş




şəhid ailələrinin üzvləri, Pəncəlinin döyüş yoldaşları, qazilər, Astara Rayon İcra Hakimiyyətinin rəsmiləri, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının fəalları, diaspor və ictimaiyyətin nümayəndələri, kənd sakinləri toplaşmışdı.

Mərasim iştirakçıları əvvəl qəhrəman şəhidin məzarını ziyarət etdilər. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun, şəhidin döyüş yoldaşlarının adından məzarın üzərinə əklil, gül dəstələri düzüldü. Şəhidin ruhuna Fatihə surəsi, dualar oxundu.

Mərasim şəhidin ev muzeyinin qarşısında davam etdirildi. Müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Asxanakəran kənd tam orta məktəbinin direktoru Əlican Hacıyev Pəncəli Teymurovun qəhrəmanlıqlarla dolu ömür yolundan söhbət açdı. Bildirdi ki, Asxanakəran ərazi vahidliyi üzrə Qarabağ uğrunda döyüşlərdə 5 gənc: Bəxtiyar Rüstəmov, Pəncəli Teymurov, Kənan Hacıyev, Əhəd Ağayev və Sarvan Qurbanov şəhidlik zirvəsinə ucalıb.

Pəncəli qısa, lakin şərəfli ömür yaşayıb. 1998-ci ildə Asxanakəran kənd tam orta məktəbini bitirib. 1999-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat-diversant taborunda xidmətini davam etdirib. Kəşfiyyatçı peşəsinə yiyələnib. Qardaş Türkiyədə təlimlərdə yüksək bacarığı, peşəkarlığı ilə seçilib. Xidmət dövründə ən çətin tapşırıqların öhdəsindən layiqincə gəlib və təcrübəli, mahir kəşfiyyatçısı kimi tanınıb.

Xüsusi Təyinatlı Qüvvələrin sıralarında 17 il qüsursuz xidmət edib. 2015-ci ildə işğal altında olan Kəlbəcər rayonunda Ermənistan ordusuna məxsus hərbi texnikanı və iyirmidən çox hərbçini məhv edib. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Pəncəli Nurməmməd oğlu Teymurov "İgidliyə görə" medalı ilə təltif olunub.

2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecədən başlayaraq, Tərtər istiqamətində gedən döyüşlərdə, Talış yüksəkliyinin alınmasında, düşmənin canlı qüvvəsinin məhv edilməsində igidlik, şücaət göstərib. Bu döyüşdə son damla qanına qədər vuruşaraq qəhrəmancasına şəhid olub.

Pəncəli cəmi 3 il əvvəl toyunda dediyi *"Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın"* kimi müqəddəs arzusuna qovuşub. Aprel döyüşlərində göstərdiyi misilsiz şücaətlərə görə Azərbaycan Prezidentinin Sərəncamı ilə Silahlı Qüvvələrin giziri Pəncəli Nurməmməd oğlu Teymurov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Anım mərasimində **Mili Məclisin deputatı Vasif Qafarov** çıxış edərək dedi:

- Böyük zəfərə gedən yol Aprel döyüşlərindən başlandı. İlk dəfə 2 min hektara yaxın ərazi işğaldan azad edildi. Aprel döyüşləri ilə xalqımız qətiyyətini, iradəsini ortaya qoydu. Azərbaycanın öz torpaqlarının işğalı ilə barışmayacağı bütün dünyaya məlum oldu. Ordumuz düşmənə gücünü, qüdrətini göstərdi. 35 illik ömrünün yarısını hərbi xidmətdə keçirən Pəncəli Teymurov bu döyüşlərdə igidlik, şücaət, qəhrəmanlıq nümunəsi göstərdi. Bu gün onun və bütün şəhidlərimizin ruhları şaddır. Çünki 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror əməliyyatı zamanı torpaqlarımız işğaldan azad edilib, suverenliyimiz tam bərpa olunub. Azərbaycanın köksünə 200 il əvvəl yerləşdirilən bomba tamamilə zərərsizləşdirilib, iki əsrlik bədnam problem birdəfəlik həll olunub. Biz hamımız qalib dövlətin vətəndaşlarıyıq, qürurluyuq, məğruruq.



Sonra şəhid atalarından İmran Bağırov (Bakı), Əliş Şirinov (Salyan), Vidadi İsmayılov (Neftçala), Qəhrəman Həşimov (Lerik), Teymur Tağıyev (Lerik), şəhid qardaşı və qazi Namik Əliyev (Bakı) çıxış edərək bildirdilər ki, torpaqlarımızın işğaldan tam azad edilməsi, soydaşlarımızın ata-baba yurdlarına qayıdışı hər birimizi sevindirir. Övlad böyütdük ki, torpaqlarımızı alçaq düşməndən təmizləsin. Oğullarımız başımızı ucaltdılar, qürurumuzu qaytardılar. Hər il Pəncəlinin anım günündə bu ocağı ziyarətə gəlirik. Pəncəli misilsiz qəhrəmanlığı ilə doğma kəndini, el-obasını Azərbaycana tanıtdırdı. Dövlətimizin başçısı cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva daim şəhid ailələrinin yanındadır, dövlətimizin davamlı qayğısını hiss edirik.

**Milli Məclisin deputatı Rəşad Mahmudov** dedi: "Pəncəli Vətən, torpaq uğrunda şəhadəti ilə ata ocağını ziyarətgaha çevirdi. Atası Nurməmməd kişinin və bütün şəhidlərimizin ruhları şaddır. Şəhidlər şanlı tarix yazdılar. Biz bundan sonra torpaqlarımızı itirməkdən qorxmuruq, çünki Pəncəlidən nümunə götürən mərd, qeyrətli, vətənpərvər oğullar tarix boyu torpaqlarımızın işğalına imkan verməyəcəklər. Bu gün hər birimiz qalib, müzəffər dövlətin vətəndaşı olmağımızla fəxr edirik.

**"Mənim atam qəhrəmandır!" və "Mənim oğlum qəhrəmandır!" layihələrinin rəhbəri Cəlal Qurbanov** anım mərasimində çıxışında dedi: "Artıq beş ildir ki, həyata keçirilən layihələrin məqsədi təkcə şəhid ailələrinə mənəvi dayaq olmaq deyil, həm də Vətən uğrunda canını fəda etmiş igidlərimizin adını yaşatmaqdır. Bu layihələr hər şeydən əvvəl milli birliyimizin təcəssümüdür. Layihələrin uğurla həyata keçirilməsində Heydər Əliyev Fondunun böyük rolu vardır. Ölkəmizin Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva şəhid ailələrinə, şəhid analarına xüsusi diqqət və qayğı göstərir. Fondun icraçı direktoru Anar Ələkbərov həmişə qeyd edir ki, "Biz şəhid analarını və şəhid balalarını qorumalıyıq!". Bu müqəddəs missiya vətəndaş borcu olmaqla yanaşı, həm də mənəvi dəyərdir. Vətən uğrunda canından keçən qəhrəmanlarımızın ailələri daim ehtiramla yad edilməli, şəhidlər heç zaman unudulmamalıdır".

**Əslən qonşu Toradi kəndindindən olan, Buryatiya Muxtar Respublikasının Selenqə şəhərində Azərbaycan Diasporunun və Milli Mədəni Muxtariyyətin rəhbəri Cəmil Hüseynov** xaricdə yaşayan soydaşlarımız adından mərasim iştirakçılarını salamlayaraq dedi: "Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda şəhadətə yüksəlmiş Pəncəli Teymurov kimi mərd, igid, qəhrəman oğulları Vətəndən uzaqlarda da həmişə ehtiramla anırıq. Buryatiyada və ətraf regionlarda diasporumuz gənclərin Azərbaycana məhəbbət , doğma yurda bağlılıq, azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində dəyərli işlər görür. Biz daim Vətənlə əlaqə saxlayır, şəhidlərin xatirəsinin əbədiləşdirilməsində, anım mərasimlərinin keçirilməsində dəstəyimizi əsirgəmirik".

**"Qarabağ" ordenli ehtiyatda olan hərbçi Famil Fərəcov, Əlizamin Ələkbərov** Pəncəli haqqında xatirələrini bölüşərək hər dəfə döyüş tapşırığı veriləndə onun necə sevindiyini, yağı düşmənə qan uddurduğunu söylədilər. Bu gün Qarabağda, Şərqi Zəngəzurda ay-ulduzlu, üçrəngli bayrağımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Pəncəli kimi igid, qeyrətli oğulların canı-qanı hesabına əzəmətlə dalğalandığını, onların xidmətlərinin, qəhrəmanlıqlarının heç zaman unudulmaycağını bildirdilər.

Əslən Lerik rayonundan olan **sahibkar Qurban Məmmədov** Azərbaycanın Milli Qəhrəmanlarından Polad Həşimovun və Mübariz İbrahimovun, Pəncəli Teymurovun birgə şəkli həkk olunmuş xalçanı şəhidin anası Vahimə xanıma təqdim etdi.

Mərasimdə **şəhidin qardaşı Famil Teymurov** Pəncəli haqqında xatirələrini söylədi, torpaqlarımızın müzəffər ordumuz tərəfindən cəmi 44 günə azad edildiyini, ölkəmizə qalibiyyət, zəfər yaraşdığını bildirdi.

Qəhrəman **şəhidin anası Vahimə xanım** müqəddəs Ramazan ayında şəhid anaları üçün təşkil edilən iftar süfrəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın şəhid anaları ilə səmimi görüşdüklərini, söylədikləri xoş, hərarətli sözlərin anaların qəlbinə işıq saçdığını bildirdi. Şəhid ailələrinin hər zaman dövlətimizin başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun yüksək diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayaraq dərin minnətdarlığını ifadə etdi.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika .- 2025.- 9 aprel (№69).- S.10.